AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# MÜASİR İNGİLİS DRAMATURGİYASINDA HAROLD PİNTER YARADICILIĞININ YERİ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Solmaz Həşim qızı Ələsgərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Qərbi Kaspi Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Nailə Məmmədhüseyn qızı Sadıqova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Həmidə Əhməd qızı Əliyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Əzizə Qurban qızı Məmmədova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Xəyalə Ağamirzə qızı İbrahimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**İradə Nadir qızı Sərdarova**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünya sivilizasiyasına inteqrasiya etmək üçün sosial-mədəni həyatın bütün sahələrində qlobal miqyaslı problemlərin tədqiq edilməsi vacibdir. Bu baxımdan ingilis, Britaniya ədəbiyyatının təhlilə cəlb olunması xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqat işi müasir ingilis yazıçısı Harold Pinter (Harold Pinter, 1930-2008) dramaturgiyasının təhlilinə həsr olunmuşdur. İngilis dramaturgiyasına qısa baxış və Harold Pinterin müxtəlif ədəbi ənənələrdən istifadə etməsi müzakirə obyektinə çevrilmişdir. Müəllifin reallığa fərqli yanaşma tərzi və özünəməxsus ifadə üsulları tədqiqat işi boyunca diqqət yönəldilən məsələlərdəndir. İngilis ədəbiyyatına, daha dəqiq desək, yeni ingilis dramaturgiyasına müraciət etməyimizin əsas səbəbi İngiltərədə teatrın inkişafı, tamaşaçıların səhnə əsərlərinə olan marağı ilə başlanmışdır. Daha sonra 2005-ci ildə Ədəbiyyat üzrə Nobel mükafatı alan görkəmli dramaturq Harold Pinter yaradıcılığının öyrənilməsinə ehtiyac duyulduğu üçün bu mövzu diqqətimizi cəlb etmişdir.

Absurd teatrın görkəmli ideoloqlarından biri olan Harold Pinter dramaturgiyası indiyə kimi Azərbaycan ədəbiyyatşünaslığının sistemli tədqiqat obyektinə çevrilməmişdir. Halbuki, təkcə rejissor, ssenarist, aktyor və şair kimi çoxşaxəli yaradıcılığı ilə, eləcə də dramaturq kimi Harold Pinterin əsərləri ingilis gerçəkliyinin hüdudlarını aşaraq keçən əsrdə və indiki dövrdə aktuallıq kəsb edir.

Azərbaycan ədəbiyyatşünaslığının ingilis dramaturgiyasına marağının səbəbi bəşəri əhəmiyyətli məsələlərin nümayiş etdirilməsidir, onun personajlarında hər kəsin özünü tapa bilməsidir. Cəmiyyətdə baş verən hadisələrin məntiqsiz, mənasız, qeyri-mümkün, absurd olduğunu əks etdirdiyi və bədən dilindən istifadə etdiyi üçün dünya ədəbi tənqidi tərəfindən yüksək dəyərləndirilmişdir. Müxtəlif ədəbi janrları birləşdirməsi, sabit ədəbi düsturlardan imtina və dilin ifadə imkanlarından sərbəst istifadə etməsi, dialoq və nağıletmə yerinə psixoloji düşüncənin açılmasına üstünlük verməsi səbəbindən Harold Pinter yaradıcılığına diqqət artmışdır. Ədəbi-bədii silah kimi gülüşün müxtəlif növlərindən

istifadə edən dramaturq həyatın qeyri-məntiqiliyini göstərmişdir. Mövzunun aktuallığı müəllifin həm reallıqda, həm də xəyallarda mövcud olan cəfəngiyyat və mənasızlığın ortaya qoyulması, dərk etdirilməsi ilə bağlıdır.

Bəşəriyyətin hüquqsuz, asılı vəziyyəti, hakim qüvvələrin hegemonluğu və mənəvi dəyərlərə malik olmaması dramaturqu vətəndaş kimi narahat etmiş və onu siyasi fəaliyyətə sövq etmişdir. Məhrumiyyətlər içərisində böyüyən insanın haqsızlığa qarşı mübarizəsi fonunda onun aktiv ictimai mövqeyinin bəşəriliyi aktuallıq kəsb edir.

Müasir Azərbaycan dramaturgiyası və Harold Pinter pyesləri arasında tipoloji paralellərin aşkar edilməsi, müqayisələr aparmaqla absurdizm və postmodernizmə məxsus xüsusiyyətlərin nəzərə çatdırılması tədqiqat mövzusunun aktuallığını sübut edir.

İlk pyesinin tamaşaya qoyulduğu gündən etibarən Harold Pinter dramaturgiyası ədəbi tənqidin diqqətini cəlb etmiş, ciddi mübahisələrə və fikir toqquşmalarına səbəb olmuşdur. Ədəbi fenomen olaraq elə həmin dövrdən ingilis və başqa ölkələrin tədqiqatçıları və ədəbi tənqidçiləri tərəfindən öyrənilməyə başlamışdır. C.P.Xollisin "Səssizliyin poetikası" ("Harold Pinter: The poetic of silence", 1970) adlı monoqrafiyası, P.O.Xeqberqin "Samuel Beckett və Harold Pinterin dramatik əsərləri: əsas mövzuların və dramatik texnikanın müqayisəli təhlili" ("The dramatic works of Samuel Beckett and Harold Pinter a comparative analysis of main themes and dramatic technique", 1972) müqayisəli işi, M.Esslinin "Pinter dramaturq kimi" ("Pinter the playwright", 1982) monoqrafiyası dəyərli tədqiqat əsərləri hesab edilir. İ.Qrivz (İ.Greaves), A.Sniderman (A. Sniderman), S.Veyt (S.Watt), Aleks Foks (Alex Fox), Riçard Allen Keyv (Richard Allen Cave) və başqa tədqiqatçıların müxtəlif tənqidi məqalə toplularında, konfrans materiallarında, elmi jurnallarda və qəzetlərdə dərc edilən yazıları maraqlı məlumat mənbəyi ola bilər.

Rus ədəbiyyatşünasları arasında N.A.Andreyev, O.K.Kantoroviç, Y.İdlis, E.Q.Dotsenko, E.B.Klimenko, A.N.Talanova, T.İ.Nikitina, B.N.Suşkova, A.S.Tokmina, O.F.Senkova və başqa müəlliflərin tədqiqat obyektinə çevrilən Harold Pinter dramaturgiyası

müxtəlif aspektlərdən təhlil edilmişdir. İngilis dramaturqunun yaradıcılığına Melike Saba, Arzu Özyön, Seray Durak, Yavuz Pak, Dilek İnan kimi türk tənqidçiləri də müraciət etmişdir.

Harold Pinter Nobel mükafatı aldıqdan sonra Azərbaycan ədəbi ictimaiyyətinin diqqətini cəlb etmişdir. Xəyalə Məmmədova, Ramiz Abbaslı, İlqar Əlfioğlu kimi tərcüməçilərin sayəsində Azərbaycan oxucusu ingilis dramaturqunun yaradıcılığı ilə yaxından tanış olmuşdur. Eləcə də Zeydulla Ağayev, Şahin Xəlilli, Qorxmaz Quliyev, Emiliya Əsgərova, Xəyalə Məmmədova və digər tədqiqatçılar Harold Pinterin yaradıcılığı haqqında fikir, mülahizələrini söyləmişlər.

Azərbaycan ədəbiyyatşünaslığında Harold Pinter dramaturgiyasının sistemli şəkildə araşdırılmaması mövzunun aktual olduğunu təsdiqləyir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas obyektini Harold Pinter dramaturgiyası təşkil edir.

Tədqiqatın predmeti ingilis dramaturgiyasının təşəkkülü və inkişafı prosesində Harold Pinter yaradıcılığının poetikası, struktur-kompozisiya xüsusiyyətlərinin öyrənilməsi, eyni zamanda, Britaniya dramaturgiyasının yeni mərhələsi kimi araşdırılmasından, Harold Pinter yaradıcılığı ilə Azərbaycan dramaturgiyası arasında paralellərin aşkara çıxarılmasından ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** İngilis dramaturgiyasında Harold Pinter yaradıcılığının yerini və əsərlərinin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək, novatorluğunun nədən ibarət olduğunu aşkara çıxarmaq tədqiqat işinin əsas məqsədidir.

Bununla əlaqədar dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsini məqsədəuyğun hesab edirik:

- Harold Pinter yaradıcılığının araşdırılmasına dair ayrı-ayrı materialları, ingilis, rus, türk və başqa ölkələrin tədqiqatçıları və ədəbi tənqidçilərinin elmi-monoqrafik araşdırmaları, eləcə də Azərbaycan ədəbi ictimaiyyətinin irəli sürdüyü fikir və mülahizələri əsasında H.Pinter dramaturgiyasının ümumi mənzərəsinin yaradılması;
- Harold Pinterin dramaturgiya janrında yazdığı əsərlərinin struktur-kompozisiya xüsusiyyətlərinin izah edilməsi, qayə və özəlliklərinin elmi şəkildə açıqlanması;

- Harold Pinter yaradıcılığının ideya və idealları mühakiməsini irəli sürərkən az öncə adları çəkilmiş alimlərin əsərləri fonunda dramaturqun ədəbi fəaliyyətinin əsas məqsəd və istiqamətlərinin təqdim edilməsi;

- İngilis dramaturqunun pyesləri ilə Elçin Əfəndiyev, Firuz Mustafa, Kamal Abdulla, Afaq Məsud kimi Azərbaycan dramaturqlarının əsərlərinin oxşar süjet və motivlərinin təhlili.

**Tədqiqat metodları.** Tədqiqat işində ədəbiyyatşünaslığın əsas prinsiplərindən olan təsviri, müqayisəli-tipoloji və intertekstual təhlil metodlarına istinad edərək izah və əsaslandırma vasitəsilə yeni biliklərin əldə olunmasına cəhd edilmişdir. Analitik təhlil nəticənin formalaşdırılmasına xidmət etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. İngilis dramaturgiyasının təşəkkülü və inkişafı fonunda Harold Pinter teatrının poetikası, struktur-kompozisiya xüsusiyyətləri izah edilmişdir;

2. Yaddaş oyunları şəklində xatırlanan pyeslərdə zaman və məkan kateqoriyalarına yanaşma tərzi, "Pintersayağı" ("Pintersque") yazı üslubu oxucu və tamaşaçı diqqətini cəlb edən məqamlar kimi təqdim edilmişdir.

3. "Xaotik dünya"nın təsviri başlığı altında təqdim olunan pyeslərdə Harold Pinter dövrünün vacib və aktual problemlərinə toxunmuşdur;

4. "Siyasi oyunlar" ("Political plays", 1980-2000) adı ilə dünya ədəbi-elmi ictimaiyyətinə təqdim olunan pyesləri ilə Harold Pinter Britaniya dramaturgiyasında yeni mərhələ açmışdır;

5. "Ziyafət" ("Party time", 1991), "İldönümü" ("Celebration", 1999) pyesləri ilə Harold Pinter bəşəri problemlərin psixoloji-fəlsəfi təhlilini vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Harold Pinter dramaturgiyasının əhatəli və monoqrafik şəkildə öyrənilməsinə cəhd göstərilmiş, absurd teatr ənənələrinin öyrənilməsinin və dəyərləndirilməsinin mühüm və əhəmiyyətli məsələ olduğu əsaslandırılmışdır.

Dünya ədəbi-tənqidi fikri çevrəsində bir sıra alim və tədqiqatçıların əsərlərinə polemik münasibət təqdim edilmiş, lakin araşdırmanın aparılmasında həmin tədqiqat işləri heç də etalon kimi

qəbul edilməmişdir. Tədqiqat işində irəli sürülən müddəalar və təhlilə cəlb edilən materiallar Azərbaycan ədəbi-tənqidi fikrində yeni görünən məsələ hesab edilmişdir.

Azərbaycan ədəbi-elmi fikrində Harold Pinter dramaturgiyasının sistemli şəkildə araşdırılması dissertasiyanın elmi yeniliyini təmin edir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya işində monoqrafik təhlil bazasında Harold Pinter yaradıcılığı Britaniya dramaturgiyasının yeni mərhələsi kimi nəzərdən keçirilmiş, Azərbaycan dramaturgiyası ilə müqayisə edilərək təhlil, şərh edilmiş, ümumiləşdirmələr aparılmışdır. Harold Pinter dramaturgiyası XX əsr dünya ədəbiyyatının tədrisi prosesində və dərsliklərin tərtibində istifadə oluna bilər. Dissertasiya işi müvafiq sahəni tədqiq edən mütəxəssislər üçün mənbə rolunu oynaya bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mövzusu AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq üzrə Problem Şurasının 23 fevral 2019-cu il tarixli protokolu ilə təsdiqlənmişdir.

Dissertasiya işinin mövzusu ilə bağlı iddiaçının məqalə, tezis və müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, eləcə də xarici ölkələrdə elmi məcmuə, jurnal və toplularda dərc edilmiş, Beynəlxalq və Respublika elmi konfranslarında etdiyi məruzələr çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Qərbi Kaspi Universitetinin "İngilis dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 5 səhifə, 9160 işarə, I fəsil 46 səhifə, 89677 işarə, II fəsil 48 səhifə, 94107 işarə, III fəsil 37 səhifə, 71837 işarə, Nəticə hissəsi 2 səhifə, 3691 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 268472 işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılmış əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılmışdır.

**"İngilis dramaturgiyası və Pinter teatrı"** adlanan I fəsil üç paraqrafdan ibarətdir. ***"İngilis dramaturgiyasının təşəkkülü və inkişafı"*** adlı birinci paraqrafda misteriya və mirakl kimi dramatik janrların yaranmasından XX əsr dramaturgiyasına qədər bütün mərhələlər şərh edilmişdir.

Uilyam Şekspir (William Shakespeare, 1564-1616) komediyaları özündən əvvəlki Antik və Roma dövründən tutmuş XVI əsrə qədərki Avropa komediyalarının heç birinə oxşamır. Tənqid və ifşa əvəzinə nəcib və bədxah insanlar arasında mübarizə, xeyrin şər üzərində qələbəsi motivi dramaturqun komediyalarına məxsus olan xüsusiyyətlərdəndir. Onun komediyalarında romantizm güclüdür, məhəbbət, səadət, saflıq, xeyirxahlıq və insanpərvərlik kimi keyfiyyətlər təlqin edilmişdir.

XIX əsrin sonu – XX əsrin əvvəlləri İngiltərədə yaranan müxtəlif ədəbi cərəyanlar arasında ideoloji mübarizələr aparılır. Pozitivizm, estetizm, realizm, dekadentçilik, neoromantizm ədəbi cərəyanları daha geniş yayılmışdır.

Satirik, publisist və dramaturq Bernard Şou (George Bernard Shaw, 1856-1950) yeni tələb və yeni problemlərə həsr olunan dramatik əsərlər yazmağın tərəfdarı olmuş, imperializmə qarşı mübarizə aparmışdır. Böyük dramaturq 1925-ci ildə Nobel mükafatı laureatına, 1938-ci ildə "Piqmalion" ("Pygmalion", 1912-1913) pyesinin motivləri əsasında çəkilmiş filmə görə Oskar mükafatına da layiq görülmüşdür.

Erik Bentli "Dramın həyatı" ("The life of the Drama") kitabında *"Şou üçün süjetin məğzi onun süniliyindədir"*[1] deyərək həmin dövrdə naturalistlərin süjetdən imtina etdiklərini nəzərdə tutmuşdur.

---

[1] Erik, Bentli. Dramın həyatı / tərc. F.Cəlilova, elmi red. R.Mustafayeva. – Bakı: ADMİU, – 2019. – 272 s.

XX əsrin ikinci yarısında dramaturgiya sahəsində yeniliklərə imza atan Arnold Uesker (Arnold Wesker, 1932-2016), Con Ceyms Osborn (John James Osborne, 1929-1994) kimi sənətkarlar dövrlərinin problemli məsələlərinə satirik və naturalist yanaşma ilə seçilmişlər. Absurd teatr ənənələrinin ingilis ədəbiyyatına nüfuzu bu dövrə təsadüf etmişdir. Harold Pinter, Norman Frederik Simpson (Norman Frederick Simpson, 1919-2011), Alan Eykborn (Sir Alan Ayckbourn, 1939) kimi yazarların yaradıcılığında fərqli istiqamət özünü göstərmişdir.

"Absurd teatr" anlayışının istifadəsi 1950-1970-ci illərdə dramaturgiyanın avanqarddan sonrakı dövrünə təsadüf edir. İkinci Dünya müharibəsindən sonra səhnədə həyatilik, adilik, gündəlik həyatımızdakı problemlərlə üzləşmə başlıca yer tuturdu. Ejen İoneskonun (Eugène Ionesco, 1909-1994) "Keçəl müğənni" ("La Cantatrice chauve", 1950) pyesi 1951-ci ildə səhnəyə yeni nəfəs gətirmişdi. Sonralar onun "Stullar" ("Les Chaises", 1952), "Dərs" ("La Leçon", 1951) və Samuel Bekketin (Samuel Barclay Beckett, 1906-1989) "Qodonu gözləyərkən" ("Waiting for Godot", 1948-1949) pyesi absurd dramaturgiyanın yaranmasına səbəb olmuşdu.

Piter Ustinovun (Sir Peter Alexander Ustinov, 1921-2004) fantastika ilə zəngin satirik komediyaları, Piter Şefferin (Sir *Peter* Levin Shaffer, 1926-2016) kommersiya məqsədilə yazdığı pyesləri də həmin dövrün mənzərəsidir.

XX əsrin sonlarında ingilis dramaturgiyasında daha çox feminist motivlər, rüşvətxorluqla mübarizə, qaradərili insanların taleyi, seksual azlıqların problemləri qabardılmışdır.

Birinci fəslin ikinci paraqrafı ***"Harold Pinter yaradıcılığının poetikası: struktur-kompozisiya xüsusiyyətləri"*** adlanır. Bu paraqrafda Harold Pinterin dünya teatr səhnələrini fəth edən pyeslərinin yaranma şəraiti, tarixi, poetik xüsusiyyətləri, fabulası, zaman və məkan kateqoriyalarına yeni yanaşma tərzi, "Pintersayağı" (Pinteresque) yazı üslubundan bəhs edilmişdir. Yazıçı söz və fikir azadlığı uğrunda mübarizə apararaq siyasi fəaliyyəti və aktiv ictimai mövqeyi ilə nəinki İngiltərədə, hətta bütün dünyada şöhrət qazanmışdır.

Tədqiqatçılar Harold Pinterin yaradıcılığını üç dövrə bölərək təhlil etmişlər. Susan Hollis Merritt "Pinter oyunda: Harold Pinterin

pyesləri və tənqidi strategiyalar" ("Pinter in Play: Critical Strategies and the Plays of Harold Pinter") adlı kitabında Harold Pinterin 1957-1968-ci illər arasında yazdığı pyeslərini *"Təhdid komediyası" ("Comedy of Menace")*[2] adlandırmışdır. Bu ifadə tənqidçi İrvinq Uorld tərəfindən dramaturq David Kamptonun "Dəli Görünüş: Təhdid Komediyası" ("The Lunatic View: A Comedy of Menace") adlı pyesindən götürülərək işlədilmişdir. Maykl Billinqton (Michael Billington) isə dramaturqun 1968-1980-ci illərdə yazdığı pyeslərini *"Yaddaş oyunları" ("Memory Play")*[3] şəklində xatırlamışdır. Dramaturqun 1980-ci ildən ömrünün sonuna qədər yazdığı pyeslər haqqında S.H.Merritt *"Siyasi oyunlar" ("Political Plays")* ifadəsini işlətmişdir.

Harold Pinter dilinin özünəməxsusluğu tənqidçilər tərəfindən sübut edilərək dramaturqun bədii metodunu araşdıran zaman xüsusi əhəmiyyət kəsb edir. "Pinteresque" adı ilə tanınan nadir üslubun yaradıcısı teatr islahatçısı qiymətləndirilmişdir[4]. Müxtəlif vasitələrlə informasiya ötürən dili düzgün qiymətləndirmək üçün pyeslərə yeni tənqidi yanaşmanın vacibliyi aktuallaşır. Dramaturqun yaradıcılığı dilin çərçivələrini aşaraq ifadə edilməsi mümkün olmayanı nümayiş etdirmək qabiliyyətinə malikdir[5]. Dilin təhlükəsi və qüvvəsi, dil simvollarının bir vasitə kimi istifadəsi tədqiqat obyektinə çevrilmişdir[6].

"Otaq" pyesi Pinter üslubunun xüsusiyyətlərini və yaradıcılığının əsas mövzularını anlamağa imkan yaradır. Digər pyeslərdə də tez-tez rast gələcəyimiz üslub – hadisələrin otaq daxilində cərəyan etməsi dramaturqun yazı manerası kimi diqqəti cəlb edir.

---

[2] Susan Hollis Merritt. Pinter in play: Critical strategies and the plays of Harold Pinter / – USA, – Duke University Press, – 1990. – p.343.

[3] Mishael Billington. Harold Pinter / Faber & Faber, – 2007. – p.468.

[4] Alex Fox. Self Against Others: A Psychoanalytic Reading of Harold Pinter's Work: / doctor of philosophy dis. / – Scotland: University of Dundee, 2015. –p.306.

[5] Words on Plays an educational guide to the Room and Celebration: [Electronic resource] / Geary Theater – 2001. URL: file:///C:/Users/User/Downloads/Celebration%20and%20The%20Room_WoP_2001%20(1).pdf

[6] Renee Von Paschen, M.A. Harold Pinter in German: What's lost in translation? : / doctor of philosophy dis./ – Wien, Austria, 2012. – 356 p.

*"Harold Pinter pyeslərinin fabulası sadədir: nahar, iki-üç nəfərin, ailə üzvlərinin görüşü. Lakin gündəlik həyatın daxilində uçurum var. Müəllif təzyiq, qorxunun hökm sürdüyü bağlı qapıları sındırır. Qorxu, yadlaşma qəhrəmanları idarə edir, zorakılıq onları hərəkətsiz edir. Qəflətən yumor gərgin vəziyyəti aradan qaldırır"*[7]. Pyeslərin həcmi kiçik, personajların sayı da çox azdır. Onların qorxması, ehtiyat etməsi bizə qəribə görünə bilər, amma həqiqətən də, zorakılıq, təzyiq, müharibə dəhşətləri insanları hərəkətsiz edir.

Surətlər haqqında məlumatlar sanki yarımçıqdır, hadisələrin gedişini və sonluğunu anlamaq üçün oxucu və ya tamaşaçı fikirləşməli, götür-qoy etməli olur. Pyesdə baş verən hadisələr müəmmalarla doludur. Pyeslərin konflikti ailə və sevgi motivləri üzərində qurulmamışdır. Pinter qəhrəmanları üçün məkana "yiyələnmə" əsas hesab edilmişdir[8].

Harold Pinter dramaturgiyasında fabulanın sadəliyi və surətlərin sayının azlığı məsələsinə qayıtmaq istəyirik. Bu, müasir Azərbaycan dramaturgiyası üçün də xas xüsusiyyət kimi diqqətimizi çəkdi. Afaq Məsudun "Qatarın altına atılan qadın", "Aktrisa", "O məni sevir", Elçinin "Su", "Mehmanxana nömrəsində görüş", Kamal Abdullanın "Bir, iki, bizimki!", Firuz Mustafanın "Marian şökəkliyi", "Müqəvva" və başqa pyeslərində bir neçə personaj iştirak edir, fabula isə birxətlidir. Siyasi manevrlər nəticəsində hüquqları tapdanan və azadlıqları əllərindən alınan insanlar Harold Pinterin təsvir etdiyi gərgin, əsəbləri tarıma çəkilmiş, qorxu və stress keçirən personajlardır.

Harold Pinter insan və cəmiyyət problemlərinə real yanaşaraq ətraf aləmlə əlaqənin yalnız ağrı, alçalma, xəyanət, təzyiq gətirdiyini göstərmişdir. Qəhrəmanlarının əksəriyyəti də məhz buna görə

---

[7] Сенькова О.Ф. Эволюция личностных установок в драматургии Гарольда Пинтера // Наука – образованию, производству, экономике: материалы XX(67) Региональной научно-практической конференции преподавателей, научных сотрудников и аспирантов. В 2 т. – Витебск: ВГУ имени П.М.Машерова, – 12-13 марта, – 2015, Т.1, – с.158-159.
[8] Муратова Н.А., Жиличев Р.Е. Двое в комнате: категория пространства в драматургии Гарольда Пинтера // Новый филологический вестник, – 2016. №1(36), – с.149-159.

ünsiyyətdən çəkinir, otaqdan kənardakı aləmlə əlaqə qurmağa can atmır, özlərini gözlənilməz "sürprizlər"dən sığortalamaq istəyirlər.

"Sevgili" ("The lover"), "Yüngül ağrı" ("A slight ache") və başqa pyeslərində qadın təbiəti psixoloji aspektdən açıqlanmışdır. Raylinin korluğu Rozaya ötürülür, sanki çevrilmə baş verir. Qadının işığa həsrət qalmasından dərhal sonra otağın qaranlığa qərq olması göstərilir. Müəllif metaforadan istifadə edərək personajın aqibətini məkana köçürür.

Pinter qəhrəmanlarının "otağa qapanma" problemi Firuz Mustafanın "Müqəvva" monodramında ətrafındakı insanların başa düşülməməyin, keçirdiyi əzab və iztirabların nəticəsi kimi verilir. Bundan sonra yazılan "Mətbəx lifti" ("The Dump Waiter", bəzən bu pyes "Lal ofisiant" kimi tərcümə olunur) adlı əsərində müəmmalara rast gəlirik, lakin artıq bu sirlər, mistika əqləuyğundur. Naməlumu məqsədsiz gözləmə motivi inkişaf etdirilir, gözləmənin darıxdırıcı təsiri ədavət hissini, düşmənçilik xarakterini alovlandırır. Liderliyi ələ almağa çalışan və passiv olanlar arasında həyat mübarizəsi söz, hərəkət vasitəsilə, mənəvi və fiziki cəhətcə üstünlük əldə etmənin köməyilə aparılır.

*"Dramaturq müasir insan şüurunda baş verən özgələşmə prosesinə xüsusi diqqət verirdi"*[9]. Özgələşmə prosesi onun bir çox pyeslərində mühüm xüsusiyyət kimi özünü büruzə verir.

Harold Pinter və Elçin pyeslərinin ortaq xüsusiyyətlərindən biri bizim həyatımızın cərəyan etdiyi istiqamətlərin göstərilməsi və bu həyatın müxtəlif cəhətlərinin ittihama məruz qalmasıdır. Bu dünyanın primitivliyi ortaya qoyulur, oxucular və ya tamaşaçılar anlayır ki, özləri də pyes qəhrəmanları kimi zamanın və cəmiyyətin əsiridir, doğru və yalanın, sadiqlik və xəyanətin, həyat və ölümün onlar üçün heç bir fərqi yoxdur, insan həyatı absurddur, parlaq bir heçdən ibarətdir. İnsanın mənəvi aləminin gizli tərəflərinin təhlil edilməsi bu dramaturqların pyeslərinin yüksək bədii dəyərindən xəbər verir.

Birinci fəslin üçüncü paraqrafı ***"Harold Pinter dramaturgiyasında "Xaotik dünya"nın təsviri"*** adlanır. Burada dramaturqun

[9] Quliyev, Q. Müasir Qərb dramaturgiyası. / Q.Quliyev; G.Hüseynli. Red.: A.Sabitova. –Bakı: "Zəka print" MMC, – 2019. – 344 s.

pyeslərini abstrakt ideyaya əsaslanaraq qələmə alması, sabit ədəbi düsturları inkar etməsi və psixoanalizin ədəbiyyata nüfuz etməsinə aydınlıq gətirilmişdir.

Dramaturqun pyeslərinin yazılış tərzi, obrazlarının həyata baxışı, irəli sürdüyü məsələlərin aktuallığı, finalın gözlənilməzliyi və qeyri-adiliyi ingilis dramaturgiyasının yeni nəfəsi kimi qiymətləndirilməlidir.

Realizmə can atan dramaturq absurd vəziyyətlər yaratmaqla ziddiyyətli mühit formalaşdırır. Personajların həyatı, ailəsi, hərəkətlərinin səbəbi haqqında məlumat verməyi sevməyən müəllif teatrda realizmə nail olmaq istəyib. Lakin onun yaradıcılığında avanqard cərəyan olan sürrealizmə məxsus xüsusiyyətlər də qabarıq şəkildə görünməkdədir. Yuxu, qarabasma, sayıqlamalar bədii yaradıcılığa gətirilərək əsas fikrin ifadəçisi rolunu oynayır. İnstinktlər şüurdan üstündür, məntiq inkar olunur, qaydalara və normalara riayət edilmir. Sürrealizm də simvolizm, ekspresionizm və dadaizmin təsiri ilə yarandığına görə, həyat faktları simvol dərəcəsində ümumiləşdirilir, hiss-həyəcan, emosiyalara üstünlük verilir, ideyalılıq, obrazlılıq inkar edilir, fikir və forma pərakəndəliyi əsas götürülür. Bu cərəyanlara məxsus xüsusiyyətlərin Harold Pinter yaradıcılığında əks olunması onun qaydalara, normalara əməl etmək istəyinin olmaması, çərçivələrə sığmaması, sabit ədəbi düsturları inkar etməsi ilə izah edilə bilər.

İtaətkar olmaq, yoxsa mübarizə aparmaq, ən azı başqası ilə razılaşmamaq obrazların dialoqu ilə müəyyənləşir. Onlar hərəkətdən çox dialoqa, ünsiyyətdən daha artıq müdafiə və hücuma üstünlük verirlər. Ətrafdakılardan uzaqlaşmaqla, kənar gəzməklə özünü təzyiqdən qorumaq istəyi yenə də dövlət quruluşunun mükəmməl olmadığına və cəmiyyətdə zorakılığın mövcudluğuna işarədir.

Psixoloji cəhətdən normal olmayan obrazların yaradılması Harold Pinterin həyat müşahidəsinin çox yüksək olduğunu göstərir. İnsanların daxili "mən"i üzə çıxarılır, hətta qadınların nə düşündükləri, nə istədikləri, hansı hisləri keçirdikləri, hansı psixoloji hallar yaşadıqları dəqiqliklə təsvir olunur. Psixoanalizin ədəbiyyata nüfuz etməsi Harold Pinter yaradıcılığında qabarıq formada görünür. Dramaturq öz qəhrəmanlarını sadəcə danışdırır və ya susduraraq jest,

mimika, hərəkətlə münasibət bildirməyə məcbur edir. Bəzən isə müəyyən bir məqama diqqəti yönəltmək üçün eyni söz və ya ifadəni dəfələrlə təkrar edirlər.

Həqiqətən gündəlik həyatda dialoqlara diqqət etsək, görərik ki, pyeslərdəki surətlər arasında münasibətlər və danışıqlar əslində mövcud olduğumuz zamanda insan xarakterlərinin naturalistcəsinə əksidir. *"Əslində qəhrəmanların nə demək istədiyini yalnız müəllif bilir. Çünki çox vaxt onlar hətta hərəkətlərini, hislərini, fikirlərini belə izah etməkdə acizdirlər"*[10].

Müəllif Nobel mükafatının təqdimat mərasimindəki mühazirəsində deyir: *"Ad günü" pyesində, deyəsən, əvvəlcə qəhrəmanlarıma sıx imkanlar meşəsində geniş davranış spektri təklif edirdim, amma sonda onlara yenə də öz iradəmi sırıdım"*[11]. Sərbəstlik tərəfdarı olan dramaturq qəhrəmanlarını həyatın təbii axarından kənarlaşdırmaq istəmir, lakin hadisələrə subyektiv yanaşdığını etiraf edir.

Təhqir etmə, günahlandırma, qorxutma və hərəkətləri məhdudlaşdırma səhnələrini izləyərkən insanların hakimiyyət uğrunda mübarizəsinin sənətkarlıqla təsvirinin şahidi oluruq. İnsan ləyaqətinin, şəxsiyyətinin alçaldılması əleyhinə çıxış edən ədib sərt reallıqla barışmayaraq müasir bəşər övladının keçilməz sütünların, yəni hakim qüvvələrin diktəsi qarşısında üstünlüyünü təsdiqləmək yollarını axtarır. Ünsiyyət aktı zamanı realist qat sözün mənadan kənar heçliyi, insan düşüncəsinin boşluğu, mənasızlığını büruzə verməyə yönəlir. Fikirlər anlayışlar ifadə etmək əvəzinə bir-biri ilə əlaqəsi olmayan mənasız söz yığınından ibarət olur. Absurd teatrın nümayəndələrinin yazı tərzi məhz belədir. Müəllifin sözlərinə görə, *"Mən deyərdim ki, pyeslərimdə baş verənlər realistikdir, amma mən nə edirəmsə, realizm deyil"*[12].

---

[10] Pinter, H. Pyeslər: Ad günü; Xəyanət. /tərc. Xəyalə Məmmədova. – Bakı, BSU, Kitab aləmi, – 2006. – 135 s.

[11] Pinter H. Seçilmiş əsərləri / H.Pinter; tərc. və ön söz İ.Əlfioğlu; red. N.Cabbarova. – Bakı, Şərq-Qərb, – 2010. – 632 s.

[12] Pinter H. Plays 2: [Electronic resource] / H. Pinter. – London: Faber & Faber, Incorporated, – 2013. – 238 p. URL: https://www.booktopia.com.au/harold-pinter-plays-2-harold-pinter/ebook/9780571300785.html

İnsanların bir-birinə qarşı hədsiz mehribanlığı və ya kobudluğu, sevgisi və ya nifrəti, insanların bir-birini başa düşməməsi bir-biri ilə ziddiyyət təşkil edən qütblərin qarşılaşması kimidir. Uyğunsuzluq, təzadlar dramaturq tərəfindən həyatda olduğu kimi yarımçıq şəkildə, izah olunmadan qələmə alınır.

Dramaturq real, təbii süjeti həyatda, insanların fəaliyyətində axtarır, düşünülmüş mövzunun təsirli olmadığını, uydurma kimi görünməsini bilir. Əslində bu üslub absurd teatrın istiqamətinə uyğun idi. Onu İngiltərədə məhz bu səbəblərdən absurd teatrın təşəbbüskarı və ideoloqu hesab edirlər.

Tənqidçi Vaqif Yusifliyə görə, *absurd olan şeylər sonda müəyyən bir fikrin yaranmasına gətirib çıxarır, mənasız görünən şeylər sonda konkret bir mənanı dilə gətirir*[13].

"Xəyanət" ("Betrayal", 1974), "Gözətçi" ("The Caretaker", 1959), "Keçmiş zamanlar" ("Old Times", 1970) pyeslərində də həmsöhbətlə kontakt yaratmaq üçün mənası olmayan nitqdən istifadə olunmaqla yanaşı, təxribat xarakterli, ya da konfliktin ortaya qoyulmasına xidmət edən suallara da rast gəlirik.

Personajların nitqinin absurdluğu pyesdə nitqin şablonluğu, təkrarlar, sadalama, "kar dialoq", mənası olmayan sözlər, yamsılama, paralelizm, nitqin informasiya funksiyasının pozulması kimi vasitələrdən istifadə etməklə yaradılır. Harold Pinter bu pyeslərində "absurdlaşma" obyekti kimi, ilk növbədə, dildən istifadə edir.

**II fəsil "Britaniya dramaturgiyasının yeni mərhələsi kimi: Harold Pinter yaradıcılığında bədii eksperiment"** adlanır. İkinci fəslin birinci paraqrafı ***"H.Pinter pyeslərində sərhədsiz sərbəstlik və sabit ədəbi düsturların inkarı"*** adlanır.

Psixologiya elmində şəxsiyyətin psixoloji pozğunluğu kimi tanınan infantil və passiv-aqressiv pozğunluq kimi hallara "Gözətçi" dramında rast gəlirik. Devis Aston və Maka qarşı passiv müqavimət göstərir, gizli etiraz edərək adaptasiyanı pozur, özünü ələ ala bilməməklə nəticələnən distress halı yaşayır. Passiv-aqressiv psixoloji pozğunluğun əlamətlərini açıq-aşkar görürük.

"Dəlilik" mövzusunun dünya ədəbiyyatında çox işlənməsinə baxmayaraq, Harold Pinterin "Gözətçi" pyesi orijinaldır. Azərbaycan

---

[13] Yusifli, V. Absurd, absurd, absurd... // Ədalət, –2003, – 9 may.

dramaturgiyasında da bu mövzu çox uğurlu alınıb. Elçinin "Dəlixanadan dəli qaçıb", "Mənim ərim dəlidir", "Qatil", "Şekspir" və başqa əsərlərində "ağıllılar və dəlilər" yeni rakursdan işlənib. Elçin Cəlil Məmmədquluzadədən sonra bir neçə əsərində bu mövzuya geniş şəkildə müraciət edir. C.Məmməquluzadənin "Dəli yığıncağı" əsərində dəliləri müalicə etməyə gələn həkim Lalbyuz xəstələrlə ünsiyyət qura bilmir, çünki özü laldır.

Personajların qeyri-sabit psixoloji durumu mütləqiyyət üsuli-idarəli dövlətlərin vətəndaşlarının halını xatırladır. Fərdlərin özünü köməksiz hiss etməsi və sərbəst qərarlar qəbul edə bilməməsi ("Birhtday party", Stenli), özünə lazımi dəyəri verə bilməməsi, təhqir edilməmək və alçaldılmamaq üçün ünsiyyət qurmaqdan çəkinməsi ("Family voices", cavan oğlan), eyni zamanda idarə olunmaq istəməyən və məqsədinə çatmaq üçün ətrafdakılara ehtiyac duyulması ("A night out", Albert) kimi şəxsiyyət pozuntusu adını alan problemlər Pinter obrazlarının xarakterində əksini tapır.

"Ad günü" pyesində olduğu kimi "Gözətçi"nin finalında faciə vasitəsi kimi zorakılıqdan deyil, qaranlıqdan istifadə edilir. Qaranlıq nədir? İşıqdan məhrum olmaq, işığın yoxluğu, zülmət mənasında işlədilir. Anlaşılmaz, aydın olmayan, bəlli olmayan məsələ haqqında danışılanda qaranlıq məsələ deyirlər. Qaranlıq eyni zamanda cəhalət, mədəni gerilik, mədəniyyətsizlik, heç nə bilməmək mənalarında da istifadə olunur. Qarşındakı təhlükəni görə bilməmək, qorxu, həyəcan və acizlik hissi yaratmağın özü arxa planda zorakılığın olduğunu göstərir.

Elçinin "Poçt şöbəsində xəyal" tragikomediyasında Ədilə də Len və Aston kimi hallüsinasiyalardan əziyyət çəkir, onların psixoloji vəziyyəti oxşardır. Tədqiqatçı alim Seyfəddin Eyvazova görə, əsərdəki *Kişi – hər şeyi bilən bu adam – ali həqiqətmi, vicdanmıdır? Hər halda, həqiqətləri çılpaq deyən bir obrazdır*[14]. Həyatın yeknəsəkliyi, cansıxıcılığı Ədilənin tənhalığına səbəb olur, bu tənhalıqdan yaxa qurtarmağa kömək edən xəyali surət isə əslində öz daxili səsidir. Lenin də illüziya və təsəvvürləri onun daxili səsi kimi qəbul edilə bilər. O, reallığı təhrif olunmuş şəkildə

[14] Eyvazov, S. Xalq yazıçısı Elçinin dramaturgiyası. /S.Eyvazov; rəyçi və ön sözün müəl. İ.Həbibbəyli, red. H.Həşimli.– Bakı: ADPU nəşriyyatı, – 2008. – 208 s.

canlandıraraq aldadıcı duyğular yaşayır, həyata keçməyən arzularının qanadında özünü rahat hiss edir.

Harold Pinter də məhz insan psixikasının şüuraltı təbəqəsinə nüfuz edərək şüuru arasındakı fərqləri açıb göstərmişdir. “Uçurum”un, yəni şüurluluq və təhtəlşüurluluq arasındakı fərqli xüsusiyyətlərin dərinliyinin təsviri oxucu və ya tamaşaçını heyrətə gətirir.

Zaman çərçivələr tanımır, səhnədə hadisələrin cərəyan etməsi üçün vaxt məhdudiyyəti yoxdur. Halbuki klassisizmin üç vəhdət qanununa - məkan, zaman və hərəkətin vəhdəti tələbinə görə səhnədə canlandırılan əhvalatlar iyirmi dörd saat ərzində baş verməlidir. Modern və absurd teatrda sərbəstlik sərhəd tanımır. Sabit ədəbi düsturlar inkar edilir. Hər şeydən əvvəl janr qarışıqlığı özünü göstərir. Mətləbə dəxli olmayan əhvalatlar müzakirə olunur. Müsbət və ya mənfi qəhrəman yoxdur.

Zamandan söz oyunu kimi istifadə edən müəllif bununla qəhrəmanların psixologiyasını başa düşməyə kömək etmişdir. Zaman tez-tez dəyişir, keçmişdə yaşanan hislərin sanki hal-hazırda baş verməsi, yaddaşda şüuraltı qorunan yaşantıların dilə gətirilməsi personajların hansı dövrdə və şəraitdə olmasını şübhə altına alır.

Harold Pinterə görə, reallıq hürküdücü və qorxuludur, yaratdığı obrazlar tragik və komik həqiqətlərin bir arada yaşandığı dövrdə, arzu və gerçəklik arasındakı dəhşətli uçurum qarşısındadırlar. Mənəvi təlatüm insanlara öz “dünyalar”ından uzaqlaşmağa imkan vermir, “daxili dünya”nın sərhədləri daxilində özlərini inamlı, güclü, məğrur hiss edərək xoşbəxt həyat sürə bilirlər[15].

*“Pyes başlanğıc və sona malik deyil – bu, həyatdan qoparılmış zamanın hissələridir”*[16] yazan A.Tokmina personajların mozaik yaddaşının fraqmentlərə bölünməsi və çox zaman bir-birinə yaxın

---

[15] Howard, Pearce. "Loving Wrong" in the Worlds of Harold Pinter's Moonlight and David Mamet's Cryptogram // – Chicago, Journal of Dramatic Theory and Criticism, – 2000, Fall, – p. 61-79.

[16] Токмина А.С. «Былые времена» Гарольда Пинтера в контексте «драм памяти» / Молодежь и наука: сборник материалов Х Юбилейной Всероссийской научно-технической конференции студентов, аспирантов и молодых ученых с международным участием, посвященной 80-летию образования Красноярского края, – Красноярск: Сибирский федеральный ун-т, – 2014.

insanların xatirələrinin üst-üstə düşməməsi məsələsinə toxunur. Anlaşılmaz dünyada tək qalmaqdan qorxan absurd teatr personajları birlikdə qalmağa üstünlük verir, nə edəcəklərini başa düşmürlər, həyat missiyalarını dərk etmədən xaotik davranış nümayiş etdirirlər.

Araşdırmalar nəticəsində gəldiyimiz qənaətə görə, Harold Pinter obrazlarının bəzən zalım, inadkar, sərt, laqeyd, bəzən mülayim, qayğıkeş, sakit, zəif, qəribə, başqa məqamlarda ikiüzlü, yaltaq olduğunu müşahidə etmək mümkündür. Hər gün rastlaşdığımız insanlar, dostlarımız, qonşularımız, tanışlarımız və qohumlarımız bizə hər addımbaşı Pinter qəhrəmanlarını xatırladır. Həyatın absurdluğu və məntiqsizliyi fikrindən çıxış edərək dramaturqun bədbin əhvali-ruhiyyəyə malik insan olması qənaətinə gəlirik.

Fikrimizcə, ingilis dramaturqunun yaradıcılığının aparıcı xətti cəmiyyət, azadlıq, bəşərilik, insan və onun daxili dünyasının tərənnümüdür. Onun qəmi, kədəri, məyusluğu içərisində gözəl gələcəyə inam var, qurtuluş yollarını arayan, həqiqət tərəfdarı olan vətəndaş yanaşması var. Azadlıq probleminin qlobal miqyasda qoyulması, bütün xalqların taleyinin düşünülməsi, müstəqillik məfhumunun beynəlmiləl səviyyədə nümayiş etdirilməsi Pinter yaradıcılığının zaman və məkan məhdudiyyəti tanımadığını göstərir.

İkinci fəslin ikinci paraqrafında ***“Harold Pinter yaradıcılığında “Siyasi oyunlar” pyeslərinin ideya-konseptual zəmini”***ndən bəhs edilir. Harold Pinter yaradıcılığının ilk dövrlərindən etibarən pyeslərində şüuraltı olaraq siyasi motivləri əks etdirmişdir. “Otaq” pyesindən tutmuş “İldönümü” əsərinə qədər ər-arvadın münasibətində də, millət və liderlərin yanaşma və siyasətində də hegemonluğun, təzyiqin olduğu aşkar edilmişdir.

Əzmkar, dəyanətli, davamlı və sarsılmaz baxışları ilə yazıçı dünya siyasətinin təhlili və müzakirəsi zamanı özünəməxsus siyasi platformasını təqdim etmişdir, “Dağlı dili”, “Kül külə” pyesləri ilə siyasi teatrı yeni istiqamətə yönəltmişdir.

Dramaturqun qənaətinə görə, hakimiyyətə daxili və xarici siyasətdə nəinki dediklərinə və edəcəyi işlərə, halbuki onun etdiklərinə əsasən qiymət verilməlidir. Təsəvvür və fikirlərə inanan zəif təbiətli insanlardan uzaq duraraq olmuş hadisələrə istinad etmək və həyatını gerçəkliyə əsasən davam etdirmək amalımıza

çevrilməlidir. “Reallıq realist deyil” fikrini irəli sürən Ejen İonesko *absurd teatrın mübarizə teatrı olduğunu, burjuaziya teatrına qarşı, bəzən hətta realist teatr əleyhinə çıxdığını təsdiqləyir*[17]. *“Dünyanın sonu”, hərc-mərclik, ”heç nə” kimi formalaşan absurd mədəniyyətin böhranı ilə əlaqədardır fikrini deyənlər də var*[18].

M.Esslinin absurd pyeslər barədə təhlil apararkən gəldiyi qənaətə əsasən, *real heç bir şey baş vermir, zaman yalnız illüziyadır, dünya fani və dəyişməzdir*[19]. Reallıqda olmayan düşüncələrdən istifadə, öz təsəvvür və xəyallarının köməyilə yazılan əsərlər maraq doğurur.

“Səfər ərəfəsində” (“One for road”, 1984) adlı birpərdəli pyesdə hədəflər birbaşa izləyənlərin gözü önündə sərgilənir, sosial və siyasi münasibətlər sətiraltı, dolayı yollarla deyil, birbaşa, açıq şəkildə göstərilmişdir. *“Pinter siyasi ikiüzlüyü, siyasi manevrləri orta siniflərə göstərmək üçün teatrı seçir, həqiqəti abstrakt gerçəkliyə çevirməyə çalışır”*[20].

*Son pyeslər “siyasi oyanış” üçün çalışan dramaturqun mövqeyini aydın göstərir, absurd elementlər azalmağa başlayır, fakt və həqiqətlərə əsaslanır, xüsusən də “Səfər ərəfəsində”, “Dağ dili”, “Yeni dünya nizamı” kimi pyeslər daha az sirli görünür*[21].

**III fəsil “Harold Pinter absurd teatrın ideoloqu kimi: bəşər hüquqları uğrunda mübarizə”** adlanır. Bu fəslin ***“Aktiv ictimai fəaliyyət, güzəştsiz vətəndaş mövqeyinin pyeslərdə əksi”*** adlı birinci paraqrafında müəllif hakim zümrələrə yanaşmasında despotik münasibətləri önə çıxarmış, göstərmişdir ki, despotizm insanların təbiətini, daxili aləmini tamamilə ələ alaraq iflic edir.

---

[17] Ионеско, Э. Есть ли будущее у театра абсурда?: [Электронный ресурс] / Ионеско Э. / /Выступление на коллоквиуме «Конец абсурда?» / Театр абсурда. Сб. статей и публикаций. СПб., – 2005. – с.191-195. URL: http://ec-dejavu.ru/a/Absurd_b.html

[18] Буренина, О. Что такое абсурд или по следам Мартина Эсслина / Абсурд и вокруг: Сб. статей, М. Языки славянской культуры, – 2004. – с.7-72.

[19] Esslin, Martin. The Theatre of Absurd / M.Esslin. – London: Vintage publication, – 2011. – 373 p.

[20] Esslin, Martin. The Peopled Wound: The plays of Harold Pinter / M.Esslin. – London: Methuen & Co Ltd, – 1970. – 256 p.

[21] Christoph Krüger. The plays of Harold Pinter. From Absurdizm to Political Drama / K.Christoph; – Tectum Verlag: Marburg, – 2011. – 115 p.

“Yeni dünya düzəni” (“The new world order”, 1991) pyesi dramaturqun antiimperialist təsəvvürlərini ortaya qoymuşdur. Pyesin ötürdüyü fikrə əsasən, görürük ki, həyatdakı problem, ziddiyyət və çətin hesab etdiyimiz məsələlər yuxu və xəyallar vasitəsilə həllini tapmır. Cəmiyyətin qəbul etdiyi əxlaq normaları, dünyagörüş və inancların qorunub saxlanması diqqətsizlik, laqeydlik və məsuliyyətsizlik üzündən iflasa uğrayır.

“Ay işığı” (“Moonlight”, 1990) pyesində konflikt və ironiya əvəzinə daxili dünyanın təsviri, dramatik hərəkətin yerinə lirizm mübhəm şəkildə əksini tapır. “Evə qayıdış”dan 15 il sonra yazılan ən böyük həcmli əsərdir. Bu dövrdə siyasi mövzulara üstünlük verən dramaturq sanki yaddaş oyunlarına qayıdır. Bricet ikinci monoloqunda həbs edilmədiyi, əsir, kölə olmadığı, azad olduğu üçün sevinir. Gizlənərək azad olmaq istəyi Harold Pinteri bütün yaradıcılığı boyu izləyən mövzu idi. Ailə, sevgi, həyat və ölüm mövzusunda yazılan əsərdə şərtiliklər özünü göstərir. Ay işığının aldadıcı və dəyişkən olması əsas süjet xəttini təşkil edir.

“Ziyafət” (“Party time”, 1991) pyesində “mənəvi barbarlıq dünyası” təsvir olunmuşdur. Təhlükənin daxili və xarici dünyalara bölünməsi baş verir. Ailədən imtina etmək, hadisələri vərdiş etdiyimiz kimi qəbul etməmək, həyatdan zövq almağa mane olan məsuliyyət hissinin yoxluğu insanların azadlığını əlindən alır, asılı vəziyyətə salır və bu insanlar yeni cəmiyyəti formalaşdırır. Pyesin psixo-siyasi aspektdə yazılması fikrini irəli sürən Alex Fox öz tədqiqatında *Pinterin hakimiyyətə qarşı münasibətini müəyyənləşdirərkən personajların ünsiyyətinin psixoloji “reallıq” kimi formalaşdırılması fikrini müdafiə edir*[22].

Bir-birini düşüncəsizliyə sürükləyən insanlardan təşkil olunmuş cəmiyyətin halı nifrət doğurur. Dastinin “nə haqda düşünəcəyimi bilmirəm?” sözlərinə Terri “sənə heç nə düşünmək lazım deyil” cavab verərək laqeydlik nümayiş etdirməyi məsləhət görür. Çünki işgəncələrlə əhatə olunan qəddar dünya sevgi, dostluq və mərhəmət hislərinin nə olduğunu xatırlayanları dəhşətə gətirir. Dövlət təhlükəsizlik strategiyasının əsas hissəsi olan işgəncələr dövlətə

[22] Alex, Fox. Self Against Others: A Psychoanalytic Reading of Harold Pinter’s Work: / doctor of philosophy dis./ – Scotland, University of Dundee, 2015. – p.306.

müxalif düşüncələrin məhv edilməsinə yönəldilir. Təhlükəsizliyi təmin etmək əvəzinə əslində ciddi təhlükə yaradan bu təşkilatlar insanların qorxu və təhdidlər altında məhv edilməsinə diqqət yetirir.

Terri öldürmək haqqında o qədər rahat danışır ki, sanki gündəlik, adət etdiyi bir işdir. İnsan həyatının bu qədər ucuz qiymətləndirildiyi, daha doğrusu, heç dəyər verilmədiyi aşkara çıxır. Soyuqqanlı şəkildə ölüm aktını yerinə yetirəcəyi üsulun xoşa gələcəyini və gizli saxladığını söyləyir. Bu hərəkətlər narsist davranışlar kimi qiymətləndirilə bilər. *"Narsist özünü çox bəyənən, üstün görən, daima yüksək qiymət və diqqət gözləyən, qiymətli olduğuna inanan insandır"*[23].

Təhlükə isə dövlətin silahlı qüvvələri tərəfindən həyata keçirildiyi üçün rəsmi xarakter daşıyır. "Otaq", "Ad günü" və başqa ilk dövr pyeslərdə "təhlükə" qeyri-müəyyəndir. Bu pyesdə isə artıq zərbənin hansı tərəfdən gələcəyini dəqiq bilmək olur. Gevin "təmizləmə" işləri apardığını, əməliyyatın sona çatdığını, az vaxt ərzində bütün xidmətlərin bərpa olunacağını qeyd edəndə azadlığın boğulması və şəxsiyyətin alçalması məsələsi qabardılmışdır. Humanizm uğrunda mübarizə apararaq dramaturq burjua cəmiyyətinin mənzərəsini yaratmışdır. Britaniyanın faşizmə sürükləndiyi fikrini irəli sürən müəllif müxalifətin iğtişaşının vəhşicəsinə yatırıldığını nəzərimizə çatdırmışdır.

Cimmi günahı ucbatından əzab çəkərək yazıq və aciz bir insana çevrilir. Qurbanları kimi biçarə və bədbəxt olan qəhrəman dövlətin repressiya siyasətinin bir hissəsi olaraq cəzasını alır, yəni normal yaşayışdan məhrum olur, ətrafda baş verənləri dərk edə bilmir, ruhi xəstə təsiri bağışlayaraq müxtəlif məntiqsiz fikirlər irəli sürməyə başlayır.

Hakimiyyətin təhlükəsizlik strategiyasının ayrılmaz hissəsinə çevrilən "qulluq sahibləri"ni gözləyən aqibətin nə qədər acınacaqlı olduğunu görürük. Müxalif qüvvələrin sıxışdırılması, fərqli fikirlərin boğulması, etirazın qəbul edilməməsi, dissidentliyin qarşısının alınması Harold Pinterin narahatlığına səbəb olmuşdur.

---

[23] Canbolat, U. Psikoloji söhbətləri. Kendinizi nasıl hissetmek isterdiniz? / U.Canbolat; editör Tuba Şimşek Uzun, Asena Meriç. – İstanbul: Timaş yayınları, – 2010. – 397 s.

“Korluq” günah hissinin təzahürüdür. Öz keçmişindən, hərəkətlərindən utanmaq və gizlənməyin korluqla ifadəsi Cimmidən əvvəl Roza, Disson obrazlarına tətbiq edilmişdir. Görə bilməmək və ya gerçəkliyi görmək istəməmək personajın həyəcanı, qorxusu, təhlükə anında gizlənmə istəyindən irəli gəlir. Sentimental vasitə kimi qiymətləndirilən “korluq” təhlükəni hiss etmə anında obrazın qarşılaşdığı problemdir.

Müəllif müxtəlif insan qruplarını göstərməklə, onları yaşananlardan ibrət almağa, məsuliyyətdən qaçmamağa, düşdükləri vəziyyətə görə əsl səbəbkar olduqları halda günahkarı kənarda axtarmamağa və nəhayət, öz ləyaqətini anlamağa səsləmişdir. “Küldən kül” (“Ashes to ashes”, 1996) pyesində nasizm və onun təsiri, həmçinin, insanın mütiliyi göstərilmişdir. Bədii təsvir və bədii təhkiyə vasitəsilə tarixdə İkinci Dünya müharibəsi və Holokost adı ilə qalan hadisənin allüziya şəklində xatırlanması kütləvi halda siyasi cinayətin həyata keçirilməsini aşkara çıxarır.

Yəhudi soyqırımından əziyyət çəkənlərin faciəsi Harold Pinter kimi Azərbaycan dramaturqu Elçini də düşündürür və bu problem onun “Teatr” pyesində Maya obrazının timsalında təsvir edilmişdir.

Qəhrəmanın sözlərinin əks-səda verməsi fikrin vurğulanmasına, məlumatın məhdudlaşdırılmasına və ünsiyyətdən qaçmasına xidmət edir. Pinter personajları baş verənlər barədə birbaşa danışmır, fikri anlamaq üçün sözlər azlıq təşkil edir, hərəkət, psixoloji vəziyyət tələffüz edilənlərdən daha çox məlumat verə bilir. Hərəkət və tələffüz edilən sözlər arasında dərin bir uçurum var. Nitq informasiya ötürmə, ünsiyyət və təsir göstərmə funksiyalarını bəzi hallarda tamamilə itirir. Diqqətli oxucu və ya tamaşaçı tələffüz edilməyən sözlər vasitəsilə dramaturqun çatdırmaq istədiyi mətləbləri daha yaxşı başa düşür.

III fəslin ikinci paraqrafı ***“Sənətkarın fəal həyat mövqeyinin və ideya baxışlarının gerçəkliyin ziddiyyətləri ilə toqquşması nəticəsində yaranan pyeslər”*** adlanır. Burada müəllifin son pyesləri araşdırmaya cəlb edilir. “İldönümü” (“Celebration”, 1999) pyesində üç evli cüt Londonun ən bahalı restoranında toy ildönümü qeyd edir. Zəngin “strategiya məsləhətçisi” kimi təqdim olunan Lambert və qardaşı dünyanı idarə edən, nəzarəti əllərində cəmləyən cahil

insanlardır. Pulun və gücün hesabına tərbiyə edilən bir nəslin təhsil, mədəniyyət və etikadan kənar qrup kimi təqdimi diqqətimizi çəkir.

Tədqiqatçı Harold Pinterin elit statusunu və elit təbəqənin hansı tərzdə nümayiş etdirməsini saf-çürük edir[24]. Kapitalizm münasibətlərinin inkişaf etməsi, hakimiyyət və gücün həlledici rola malik olması insanların sevgidən məhrum olması, laqeydləşməsinə aparıb çıxarır. Nəticədə isə ünsiyyət əskikliyi yaşanır, insanlar tənhalıqdan əziyyət çəkir.

Cəmiyyət və fərd arasında toqquşmanın mövcudluğu, demək olar ki, hər addımda özünü göstərir. Dostlarının və ailəsinin ona inanmadığını, etibar etmədiyini, sevmədiyini, hətta nifrət etdiyini bildiyi üçün qəhrəman dönə-dönə inam, sevgi, etibardan danışır. Nifrətlə qarşılaşsa da, bu hissə görə onları dostluqdan siləcəyini kinayə ilə deyir. Ümumiyyətlə, qəzəb, həsəd və xəyanətin hökm sürdüyü bir cəmiyyətdə personajlar danışdıqca öz səviyyəsizliklərini, mənəviyyatsızlıqlarını sübut edirlər.

Nalayiq sözlərdən istifadə edən, xaraktersiz, əxlaqsız olduqlarını bir-birinə etiraf edən, sosial dəyərlərdən uzaq olan, gizli təhlükə və aqressiya hissi keçirənlər dünyanı idarə edənlərdir. Mədəniyyət, incəsənət xadimlərinin təqib olunmasından təəssüf hissi keçirən, təhsildən və əxlaqi dəyərlərdən danışan isə sadə bir işçidir. Hakim elitanın pul hakimiyyətinin zəfərini təmtəraqlı şəkildə qeyd etməsi gülüş doğurur

Pul üzərində bərqərar olan "Lambert dünyası" restoran işçiləri qarşısında səxavətini nümayiş etdirir, keçmiş günlərin xatirinə sevgilisi və onun ərinin hesabını ödəyir, hörmət və ehtiramın var-dövlətə bağlı olduğunu göstərir. O, ofisiantın eyhamlarını anlayaraq "gəzəndə ayağının altına bax" sözləri ilə artıq-əskik danışmamasını, hakim ideyaya qarşı çıxmamasını nəzərdə tutur. "Yıxılmamaq" – repressiyaya məruz qalmamaq üçün ehtiyatlı olmalı, qarışıq fikirlər irəli sürməməli, yol göstərməyə çalışmamalıdır, çünki sadə bir işçidir.

Mədəni görünən nitqlərin arxasında təhqirlərin, istehzanın olduğunu görürük. Qorxu və qəddarlıq hissinin hökm sürdüyü bir

[24] Hudson, James. The Elite Pinter and the Pinter Elite. In: Harold Pinter: Stages, Networks, Collaborations // edited by Basil Chiasson and Catriona Fallow; Bloomsbury Publishing: Methuen Drama Engage, – 2021. – p.53-70.

zamanı canlandıran dramaturq psixoloji zorakılıq probleminə toxunmuşdur. Siniflər arasında qarşıdurmalar deyil, mənəvi münasibətlərin mübarizəsi diqqətimizi cəlb edir. Xarakterlərin psixoloji aspektdə təqdiminə önəm verilməsi səbəbindən mənəvi saflaşmaya nail olmaq istəyən ofisiant surəti yollar axtarır.

Həqiqi sevgi meyarlarını maddiyyatla bağlı olan bütün arzu və istəklərin həyata keçirilməsində görən Suki inamını göstərmək üçün yenə də pulu vacib amil sayır. Pulun köməyilə sevgi və etibar əldə etmək olmur, əks təqdirdə qardaşlar öz ailələrində rifah içində yaşayar, məsud və bəxtiyar olardılar. Dramaturqun nəzərə çatdırmaq istədiyi ideyaya əsasən, uğurlu və bəxtiyar ailə qurmaq üçün sevgi, qarşılıqlı anlaşma, səmimi ünsiyyət vacib amillərdəndir. Bu sadə həqiqəti başa düşməyənlər pyesin tənqid hədəfləridir.

Avtoritar rejimin hökm sürdüyü bir zamanda etiraz səsini ucaltmaq o qədər də asan deyil. Üsyankar düşüncəsi ilə yanaşan müəllif ayrı-ayrı insanların despotizmə qarşı çıxmasını təsvir etmişdir.

Yaddaş dramaturqun bütün pyeslərinin baş mövzusu olaraq qalır. Dəyişən yalnız yaddaşın hansı məqsədlə istifadə olunmasıdır. İndi baş verənləri anlamaq, keçmişi yad hücumlardan qorumaq, baş verənlərin qaytarılmasının qeyri-mümkünlüyünü göstərmək və başqa hallarla bağlı yaddaşa müraciət olunur. Pyeslər keçmiş bir hadisə və ya kəlməyə istinad edərək "yaşanılmış təcrübənin kökləri"nə əsaslanır.

Dünyada cərəyan edən siyasi hadisələrin mənasını başa düşmək, həqiqətin əldə olunmasına can atmaq və bu yolla insanlara təsir etmək məqsədi güdən ingilis dramaturqunun qənaətinə görə, ədəbiyyatın özü həqiqət axtarışındadır, lakin bu həqiqəti tapmaq və tutub-saxlamaq qeyri-mümkündür. Yalanla həqiqətin sərhədlərini müəyyən etmək müşkül məsələyə çevrilir. Həqiqət hesab etdiyimiz reallıqlar eyni zamanda yalan ola bilər. Həyat kimi dramatik ədəbiyyatda da heç bir həqiqət yoxdur.

Belə nəticəyə gəlmək olar ki, bu suallar ətrafında fikir mübadiləsi aparan dramaturq reallığın absurdunu, gerçəkliyin cəfəngiyyatdan, insan ömrünün yalan təəssüratlardan, illüziyalardan ibarət olmasını aşkar etmişdir. Absurd reallığımız ənənəvi üsullardan

istifadə edilmədən oxucu və tamaşaçılara təqdim olunmuşdur. İncəsənətdə görünməz, dərk edilməz həqiqət siyasət kimidir. Əgər həqiqətin əsası olsa, onu yenə də dərk etmək olmur. Manipulyasiya, təzyiq, nəzarət kimi aldadıcı və çaşdırıcı fəndləri tətbiq edən personajlar həqiqət əldə etmək arzusunda idi.

Dissertasiya işinin **Nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

XX əsr İngilis dramaturgiyasında əvəzsiz rolu olan Harold Pinter yaradıcılığının şərhi dünya ədəbiyyat tarixinin tədrisinin təşkilində mühüm əhəmiyyət kəsb edir. Tədqiqat işində İngilis dramaturgiyasının tarixi inkişaf mərhələləri və Azərbaycan dramaturgiyasının tipoloji oxşarlıqlarını, kəsişmə nöqtələrini aşkara çıxarmaqla müxtəlif ədəbi priyomlar incələnir, bu baxımdan dissertasiyada gəlinən nəticənin müddəalarını aşağıdakı şəkildə təqdim etməyi məqsədəuyğun hesab edirik:

1. İngilis dramaturgiyasının təşəkkül və inkişaf tarixinə nəzər salaraq Harold Pinter teatrının poetikası, struktur-kompozisiya xüsusiyyətləri izah edilmiş, hansı ənənələr üzərində formalaşması müəyyənləşdirilmiş, dramaturgiyaya hansı yeni istiqamət və elementlərin gətirilməsi aydınlaşdırılmışdır.

2. Yaddaş oyunları şəklində xatırlanan pyeslərin yaranma şəraiti, tarixi, poetik xüsusiyyətləri, fabulası, zaman və məkan kateqoriyalarına yanaşma tərzi, "Pintersayağı" ("Pintersque") yazı üslubu oxucu və tamaşaçı diqqətini cəlb edən məqamlar kimi təqdim edilmişdir.

3. Xaotik dünyanın təsviri başlığı altında təqdim olunan pyeslərdə əks olunan harmoniyanın yoxluğu, məntiqsizlik, qarmaqarışıqlıq, uyğunsuzluğun hökmranlığı, gerçəkliyin absurdluğu, insan mövcudluğunun eybəcərliyi və "fizioloji" astarı təhlil edilmişdir. Dramaturqun ənənəvi qəliblərdən uzaqlaşması, fikirlərin ötürülməsində fərqli tərz nümayiş etdirməsi oxucunu insan və cəmiyyət arasında qarşılıqlı münasibətin qurulmasında yaşanan problemlər ətrafında düşünməyə məcbur etmişdir.

4. Siyasi oyunlar adı ilə dünya ədəbi-elmi ictimaiyyətinə təqdim olunan pyesləri ilə Harold Pinter Britaniya dramaturgiyasında

yeni mərhələ açmışdır. İnsanın düşüncələri, mənəviyyatı, gerçəkliyə yeni baxışı pyes qəhrəmanlarının köməyi ilə sənətkarcasına canlandırılmışdır. Absurd teatr ideologiyası təqdim edilərək boşluqlardan ibarət olan həyatın heçliyini dərk edən, ruh düşkünlüyünə qapılan personajların azadlıq və suverenliyin həqiqətdə yoxluğu ilə qarşılaşması, yaşamaq uğrunda mübarizədə məsuliyyətdən qaçması, ailədə təzyiqə əsaslanan şəraitdən əziyyət çəkməsi kimi məsələlər araşdırılmışdır. İnsanların hüquqlarını tapdalayan qanunların, arzularının məhvinə səbəb olan etik qaydaların, gözəgörünməz qadağa və çərçivələrin mövcudluğu Harold Pinter dramaturgiyasında kəskin şəkildə qoyulmuşdur.

5. "Ziyafət", "İldönümü" pyesləri ilə Harold Pinter bəşəri problemlərin psixoloji-fəlsəfi təhlilini vermişdir. Etnik-milli xüsusiyyətlər arxa plana keçir, tamaşaya baxan istənilən xalqın nümayəndəsi özünü dərk etməyə, öz timsalında şəxsiyyət və cəmiyyət arasında qarşılıqlı əlaqə problemini çözməyə cəhd edir. İlk baxışda realist teatra bənzəyən xüsusiyyətlər müşahidə olunur, lakin qeyri-adi dialoqlar, gözlənilməz hadisələr axını "xaotik dünya"dan xəbər verir. Tənhalıq isə bu qarışıq, sistemsiz, nizamsız dünyanın qlobal problemi kimi dramaturqu düşündürmüşdür. Ailə münasibətlərinin pozulması, evli cütlüklərin sadiq olmaması mənəvi boşluq səbəbindən doğur, ünsiyyət yoxluğundan irəli gəlir.

Dramaturqun əsas məqsədi köləliklə barışan insanları mübarizəyə səsləmək üçün yazdığı pyesləri və şeirləri ilə həqiqəti bərpa etmək olmuşdur. Avtoritar hakimiyyətin mahiyyətini aşkarlamaq üçün personajların digərləri üzərində hegemonluğunun psixoloji və siyasi sahədə bərqərar olmasından danışmaq vacibdir. Harold Pinter hakim zümrələri qiymətləndirəndə despotik münasibətləri önə çıxarmışdır.

Bütün irəli sürülən fikirlər Harold Pinter yaradıcılığının ingilis dramaturgiyasındakı yerini və rolunu müəyyənləşdirməyə xidmət edir. Dramaturqun pyeslərində absurdizm və postmodernizmə xas olan xüsusiyyətlərin əks etdirilməsi və yaradıcılığı sayəsində dünya teatrına bir sıra yeniliklərin gətirilməsi bütün bəşəriyyət üçün önəm kəsb edir. Harold Pinter və Azərbaycan dramaturgiyası arasında paralellərin aşkar edilməsi mövzunun səmərəli olacağına dəlalət edir.

Azərbaycan mədəni və ədəbi mühitində, eləcə də dövlətimizin ali məktəblərində dünya, o cümlədən Böyük Britaniya dramaturgiyasının tədrisində Harold Pinter yaradıcılığı və ona həsr edilmiş araşdırmalardan istifadə edib bəhrələnmək faydalı ola bilər.

**Dissertasiya işinin mövzusuna dair dərc olunmuş elmi əsərlərin siyahısı**


1. Müasir ingilis dramaturgiyasında Harold Pinterin yaradıcılığının yeri // “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda I Beynəlxalq Elmi Konfransı, Elm Tarixi İnstitutu, – Bakı, – 29-31 oktyabr, – 2018, – s.312-314.
2. Harold Pinter yaradıcılığının ilk böyük uğuru // Gənc Tədqiqatçıların Elmi-Praktik Konfransı, Qərbi Kaspi Universiteti, – Bakı, – 19 aprel, – 2019, – s.163-165.
3. İngiltərədə ilkin intibah və intibah dövrü dramaturgiyası // İnsan inkişafı. Dünyaya inteqrasiya” mövzusunda II Beynəlxalq Elmi Konfrans, Azərbaycan Memarlıq və İnşaat Universiteti, – Bakı, – 26-27 aprel, – 2019, – s.92-95.
4. Описание жизненных противоречий (по пьесе Гарольда Пинтера «Комната») // Международная научно-практическая конференция, Инновационная парадигма развития современных гуманитарных и общественных наук, – Петрозаводск, Российская Федерация, – 27 апреля, – 2020, – с.129-134.
5. Ədəbi-bədii əsərlərin dilindən “Xaotik dünya”nın təsviri // – Bakı: Azərbaycan dili və ədəbiyyat tədrisi, – 2020. №1/263, – s.59-72. İSSN-0134-3289.
6. Harold Pinter dramaturgiyasında ünsiyyət əskikliyi problemi // S.Ə.Şirvaninin anadan olmasının 185 illik yubileyinə həsr olunmuş VII Beynəlxalq elmi konfrans, Personality and society: problems of interaction, – Ardahan, Türkiyə, –25 sentyabr, – 2020, – s.39-44.
7. Humanity and originality (based on the plays “No Man’s Land”, “Betrayal” by Harold Pinter) // IV. İnternational Conference on awareness, Language and awareness/abstracts, – Çanakkale, – Türkiyə, – 02-04 December, – 2020, – s.9-10.

8. Memory: İllusion, false impression, fabrication, or inner time. // – Кіев: Вчені записки Таврійського національного університету. Серія: Філологія. Соціальні комунікації», – 2020. Том 31 (70), №4, – с.91-97. İSSN: 2663-6069.
9. Harold Pinterin "Ziyafət" pyesində mənəvi barbarlıq dünyası // – Bakı: BSU, Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, – 2020. N2, – s.272-279. İSSN-2071-4750.
10. Harold Pinter dramaturgiyasında idarəetmənin nəticələri və uğursuz ünsiyyət // – Bakı: "Elm və təhsil" nəşriyyatı, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. №11, – s.255-262. İSSN-2224-9257.
11. Təhtəlşüur və gerçəklik // Humanitar elmlərin inkişaf strategiyası Respublika Elmi Konfransı, – Bakı, –2021, – 6-7 mart, – s.142-145.
12. Zaman söz oyunu kimi // – Bakı: AMEA, Filologiya və sənətşünaslıq, – 2021. №1, – s.131-138. İSSN-2663-4368.
13. Vahid ideya müstəvisi: uyğunsuzluq, absurd, xaos // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2021. №1, – s.125-129. İSSN-2221-8432.
14. Sərhədsiz sərbəstlik və illüziya (H.Pinterin "Gözətçi" və "Cırtdanlar" pyesləri əsasında) // – Bakı: Elmi iş, – 2021. cild 15, №3, – s.68-71. İSSN-2663-4619.
15. Psixoloji zorakılıq və pul güc vasitəsi kimi (Harold Pinterin "İldönümü" pyesi əsasında) // – Kars, "Buta" İnternational Journal of Scientific Research, – 2021. № 2/3, – s.60-74. İSSN: 2717-7661.
16. Harold Pinter dramaturgiyasında absurd və postmodern yanaşma // – Bakı: ADU, "Elmi xəbərlər", – 2022. №4, – s.38-45. İSSN 2015-752X.
17. İngilis dramaturgiyasının formalaşma şəraiti və prinsipləri // – Bakı: "Pedaqoji Universitetinin Xəbərləri", Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2022. №4, – s.9-19.
18. Harold Pinter yaradıcılığında insan psixologiyasının dərki // – Bakı: AMEA, Filologiya və sənətşünaslıq, – 2024. №1, – s.166-172. İSSN-2663-4368.

Dissertasiyanın müdafiəsi 05 dekabr 2024-cü il tarixində saat 12:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "05" noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.09.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 42827 işarə

Tiraj: 100 nüsxə